# 2025-ci ilin Həsən bəy Zərdabi mükafatçıları




**Azərbaycan Jurnalistlər Birliyinin katibliyi ölkə mətbuatında, tele-radioda, eləcə də, elektron mediada çalışan və peşəkarlıqları ilə seçilən bir qrup jurnalisti 2025 - ci il üçün Həsən bəy Zərdabi mükafatı ilə təltif edib.**

AZTV-nin əməkdaşı, tanınmış idman jurnalisti Aydın Əliyev Azərbaycan idmanının təbliği və inkişafındakı xidmətlərinə, Vüqar Abbasov (Niderland Krallığı) Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasına həsr olunmuş məqalələrinə, Oksana Vəliyeva (CBC) müəllif proqramlarına, Eltən Qədimbəyli (Qafqaz.TV) region televiziyalarının inkişafına verdiyi töhvələrə, jurnalist Ramella İbrahimxəlilova kriminal mövzuda məqalələrinə, AMEA Elektron İnformasiya sektorunun müdiri Nərgiz Qəhrəmanova ölkə elminin inkişafı istiqamətində əldə olunan nailiyyətlərin ictimaiyyətə çatdırılmasındakı fəaliyyətinə, hərbi jurnalist Seymur Kazımov müharibə gedən bölgələrdən hazırladığı reportajlara, jurnalist Ramilə Qurbanlı “Gizlədilmiş tarix” silsilə yazılarına görə Həsən bəy Zərdabi mükafatları ilə təltif ediliblər.

Mükafata layiq görülənlər arasında, mətbuat və ictimaiyyətlə əlaqələrin qurulmasında fəaliyyətinə görə Enerji Məsələlərini Tənzimləmə Agentliyinin mətbuat katibi Zeynab Kazımova, ümummilli lider Heydər Əliyevə, Xocalı Soyqırımına və Vətən Müharibəsinə həsr olunmuş televiziya lahihələrinə görə Cəmilə Çebotaryova (Yeni çağ Media Qrupu), publisistikasına görə jurnalist Fuad Biləsuvarlı, Zamanın hökmü ilə talelərinə xarici ölkələrdə yaşamaq qisməti düşmüş Azərbaycanın tarixi şəxsiyyətlərinin varisləri ilə müsahibələrinə görə jurnalist Hafiz Əhmədov, uzun illər mətbuata verdiyi töhvələrə görə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin İctimaiyyətlə əlaqələr və Kommunikasiya şöbəsinin müdiri Mətin Məcidli, ölkənin ictimai-siyasi həyatının mühüm istiqamətlərini işıqlandıran yazılarına görə “Demokrat.az” saytının rəhbəri Vasif Həsənli və vətənpərvərlik mövzusunda yazılarına görə jurnalist Nəzakət Əhmədova da vardır.

Tədbir bu gün saat 14.00-da AJB-nin konfrans zalında (Bülbül pr. 30) keçiriləcək.

***XQ***

Xalq qəzeti .- 2025.- 18 iyul (№ 146).- S.11.